Ədalət .- 2025.- 5 sentyabr (№33).- S.10.



Əli Şirin Şükürlü

# Ədəbi supermatizm: Substansiya

(şeir-esse)

*Vəfatından sonra qələmə aldığım ilk bədii mətni ədəbi biliyinə və istedadına hörmətlə yanaşdığım, şair dostum Kəramətin xatirəsinə ithaf edirəm.*

Dalğalar və dalğanın səsi. Oyanır yaddaşım:
Hər şeyin bir əsası var. Kainatın təsadüfən yaranma ehtimalı sıfıra yaxın.
Hər şeyin yaddaşı var həm də, oyada bilsən əgər.
Yaddaş - üst-üstə yığılmış keçmiş və
hər keşmiş sonrakının indisi;
bir-birinin içində, ayrılması müşkül.

Onunçun deyirəm: dünyanın da yaddaşı var,
həm də altyaddaşı, üstyaddaşı həm də.
Dəniz yaddaşı dünyanın, daha doğrusu, yaddaşının bir parçası,
səma və torpaq kimi. Amma dəniz, məncə, daha şəffaf qoruyar
hadisələri - unudulan və unudulmayan,
nə vaxtsa xatırlanması mümkün, bəlkə də mümkünsüz.



Dalğanın səsi. Təsəvvür edin və ya xatırlayın bu,
cürbəcür səslərin harmoniyası.
Onunçun deyirəm dəniz yaddaşıdı dünyanın,
yaddaşın altqatıdı amma, oyansa... Məsələn:
14-cü əsrdə qasırğa nəticəsində dənizə hopan Bayıl qəsri -
bilinən və bilinməyən nələr gizlənib yaddaşın altqatında.

Dalğa və səs. Cürbəcür səs harmoniyası ilə dönədönə çırpılar sahilə.
İndi yaddaşa çevrilən torpaq. Üstündə yüzillərin Qız qalası - nə vaxtsa
gün kimi aydın həqiqətin indi bizə çatan cürbəcür taixi versiyası.

Dalğa(lar) - səslərin harmoniyası. Yaddaşın üst qatında səma.
İşığı indi bizə çatan dənizdə ikiölçülü təsviri üzən ulduzlar
həmin ulduzlar deyil bəlkə, bəlkə də özüdür seyr edirik uzaqdan
hər biri bir dünya.

Onunçun deyirəm: var olan nə varsa ”toplanmış keçmiş”.
Yaddaşa köçən yalnız yaşanan hadisələr, bəlkə ona görədir
zamanın gerçək üzü keçmişdir elə.

Dalğalar çırpılır sahilə və qayıdır geri.
Bəlkə bu kainat özü yaddaşdı elə; neçə-neçə qatı, hər biri bir dünya -
səma, torpaq, dəniz... şəklində, bəlkə də başqa ölçü və formalarda -
xatırlanması mümkün və mümkünsüz hadisələrlə dolu.

Dalğalar. Səslərin harmoniyası. Çırpılır sahilə. Geri dönür.
Və elə hey gəlir-gedir. Yaşanan hər an süzülür keçmişə.

01.09.2025